CON K.MAKSVELL

# LİDERLİYİN 21 İNKAROLUNMAZ QANUNU

**25 İLLİK YUBİLEYƏ HƏSR OLUNMUŞ BURAXILIŞ**

BU QANUNLARA TABE OLUN,
İNSANLAR DA SİZƏ TABE OLACAQLAR

Tərcüməçi:
Pərvanə Abdullayeva

qanun nəşriyyatı

JOHN C. MAXWELL

# THE 21 IRREFUTABLE
# LAWS OF LEADERSHIP

**25th Anniversary Edition**

Follow Them and
People Will Follow You

Kitab otuz ildən artıq liderlik təcrübəsinə əsasən qələmə alınıb. Müəllif karyerası boyu əldə etdiyi uğurlarla yanaşı, öz səhvlərindən də əxz etdiyi fikirləri bölüşür. Onları biznes, siyasət, idman, din və hərbi münaqişə sferalarında apardığı müşahidələrlə birləşdirərək zənginləşdirir. Liderlik qabiliyyəti irsi deyil. O yalnız öyrənilə bilər. Əgər liderliyin universal prinsiplərini mənimsəsəniz, siz də dünyanı lərzəyə gətirən dahi liderlərdən birinə çevrilərsiniz.

Kitab bir-birindən maraqlı və uğurlu liderlərin real hekayələrini nəql edir. Beləliklə, sizi məqsədinizə doğru ilhamlandırır. İçinizdə yatan gizli potensialı aşkarlamaqda sizə kömək edir. Nəticədə həyat tərzinizi dəyişdirir. Ən əsası, bu qaydalar aydın və sadə dildə xarakterizə edilir. Üstəlik, onların ailədə, cəmiyyətdə, işdə, bir sözlə, istənilən sahədə tətbiqi üçün konkret addımlar da təklif olunur.

Qaydaları müfəssəl izah edən hər fəslin sonunda tapşırıqlar yer alır. Onları yerinə yetirməklə özünüzü sınaya bilərsiniz.

**John C.Maxwell THE 21 IRREFUTABLE LAWS OF LEADERSHIP**
**Con K.Maksvell LİDERLİYİN 21 İNKAROLUNMAZ QANUNU**
Bakı, Qanun Nəşriyyatı, 2024, 392 səh.

Janr: özünüinkişaf, biznes, psixologiya
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 27.05.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Pərvanə Abdullayeva |
| Redaktor: | Cəlil Cavanşir |
| Korrektorlar: | İradə İslamova |
| | Aytən Səadəti |
| Texniki redaktor: | Əsəd Qaraqaplan |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-953-1

© Qanun Nəşriyyatı, 2024
Copyright © 2022 John C. Maxwell

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə
nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

*Bu kitab 1994-cü ildən bəri həmmüəlliflik etdiyim Çarli Vetzelə həsr olunub. Birlikdə yüzdən çox kitab yaratmışıq və onların hər birində əməkdaşlığımızdan zövq almışam. Mən liderlik prinsiplərini müəyyənləşdirərək və öyrədərək başqalarına dəyər verməyə çalışarkən, siz – Çarli, mənə və səylərimə dəyər əlavə etmisiniz. Bir söz ustası kimi fikirləriniz və bacarıqlarınız milyonlarla oxucu tərəfindən bəyənilib. Nəticədə, hədsiz sayda insana yaxın çevrəmdəki hər kəsdən daha çox təsir göstərmisiniz. Bunun üçün sizə təşəkkür edirəm.*

# Mündəricat

Stiven R.Kovi tərəfindən 10 illik yubiley buraxılışına ön söz .......... 13
Xüsusi təşəkkürlər .......... 16
Giriş .......... 17

**1: Qapaq qanunu**
Nə qədər yaxşı lider olduğunuz nə qədər uğurlu olduğunuzu müəyyən edir
Dik və Moris qardaşları az qalırdı ki, Amerika Xəyalını həyata keçirməyə müvəffəq olsunlar, lakin buna nail ola bilmədilər. Qardaşların əvəzinə bu arzunu Rey adlı bir gənc onların təsis etdiyi şirkətdə həyata keçirdi. Səbəbi də o idi ki, qardaşlar Qapaq Qanunundan xəbərsiz idilər. .......... 25

**2: Təsiretmə qanunu**
Liderliyin meyarı nə az, nə də çox, təsiretmə qabiliyyəti ilə ölçülür
Müharibə başlayanda Avraam Linkoln kapitan rütbəsi daşıyırdı, lakin müharibə yekunlaşanda o, sıravi əsgər idi. Bəs nə baş vermişdi? O, Təsiretmə Qanununun qurbanı olmuşdu. .......... 39

**3: Müddət qanunu**

Lider bir gün içində deyil, zaman içində yetişir

Teodor Ruzvelt dünya miqyasında bir güc yaratmağa xidmət göstərdi, Nobel sülh mükafatını qazandı və ABŞ-nin prezidenti oldu. Ancaq Müddət Qanununu bilməsəydi, bu gün siz onun adını belə bilməzdiniz.. 55

**4: Dənizçilik qanunu**

Hər kəs gəmini idarə edə bilər, lakin istiqaməti təyin etmək bir liderin işidir

Səhvsiz işləyən kompasdan istifadə edərək Robert Falkon Skot macəraçılar qrupunu dünyanın sonuna və eyni zamanda utancverici ölümə aparıb çıxardı. Əgər onların lideri olan bu şəxs Dənizçilik Qanunundan agah olsaydı, həmin insanlar sağ qalmış olardılar. .................. 69

**5: Dəyər qanunu**

Liderlər başqalarına xidmət etməklə onlara dəyər qazandırırlar

Görəsən illik dərc olunan “Fortune 500” siyahısında yer alan hansı şirkətin icraçı direktoru portativ masa arxasında işləyir, telefon zənglərinə cavab verir, mümkün olduğu qədər tez-tez saathesabı işləyən işçilərinə baş çəkir və “Wall Street” jurnalı tərəfindən işçilərinə qarşı çox nəcib davrandığı üçün tənqid olunur? Təbii ki, bunu Dəyər Qanununu idrak edən bir lider özündə cəmləyə bilər. ....................................................................... 87

**6: Etibarlı zəmin qanunu**

Etibar və inam liderliyin təməlidir

Əgər Robert Maknamara Etibarlı zəmin qanununu bilsəydi, Vyetnamdakı müharibə və bu səbəblə öz vətənində baş verən hər şey fərqli nəticələnə bilərdi..................... 103

**7: Hörmət qanunu**

İnsanlar təbii olaraq özlərindən daha güclü liderlərin arxasınca gedirlər

Bütün ehtimallar bu qadının əleyhinə idi, lakin minlərlə insan onu lider, rəhbər adlandırırdı. Nə üçün? Çünki onlar Hörmət Qanununun gücündən qaça bilməzdilər.......................................................................... 119

**8: İntuisiya qanunu**

Liderlər hər şeyi liderliyin tələb etdiyi uzaqgörənliklə sezə və qiymətləndirə bilirlər

Ceymi Kern Lima dəri xəstəlikləri olan qadınlar üçün effektiv kosmetika xəttini yaratdıqda heç kim onu satışa çıxarmaq istəmirdi. Hətta ona deyirdilər ki, heç kim özü bu cür dəri problemi yaşayan bir qadından gözəllik məhsulları almayacaq. Amma İntuisiya Qanununa əməl etdiyi üçün o, milyarder oldu......................................... 139

**9: Cəzbetmə qanunu**

Necə insansınızsa, ətrafınıza da o cür insanlar cəlb edirsiniz

Şirkətə yeni təyin olunmuş gənc icraçı direktor əvvəllər hörmət sahibi olan yüzillik brendi necə dirçəltdi və onun yenidən uğur qazanmağını necə təmin etdi?

Şübhəsiz, o, Cəzbetmə Qanunu haqda biliklərindən istifadə etmişdi. ........................................................................ 157

**10: Qırılmaz əlaqə qanunu**

Liderlər kömək istəməzdən əvvəl insanların könlünü qazanırlar

Kim öz rəhbərinə təşəkkür etmək üçün “Boslar günü”ndə milli qəzetdə tam səhifəlik reklam yerləşdirər? Sözsüz ki, Qırılmaz Əlaqə Qanununu əlində bayraq edən bir liderin könüllərini fəth etdiyi işçilər. ...................... 173

**11: Yaxın çevrə qanunu**

Uğurunuzun səviyyəsini sizə ən yaxın olan insanlar müəyyən edir

Heç bir lider bütün uğurları tək qazanmır. Bu çevrə sizi vəzir də edər, rəzil də. Mənim nəyi nəzərdə tutduğumu bilmək istəyirsinizsə, bu, Yaxın Çevrə Qanunundan başqa bir şey deyil. ........................................................ 187

**12: İxtiyarvermə qanunu**

Yalnız özünə arxayın olan, möhkəm əqidəli liderlər başqalarına ixtiyar verə bilər

Henri Ford avtomobil sənayesində inqilab yaratdığı üçün Amerika biznesinin simvolu, idealı hesab olunur. Bəs onun elə ciddi büdrəməsinə səbəb olan nə idi ki, hətta oğlu “Ford Motor” şirkətinin iflasa uğrayacağından qorxmuşdu? O, İxtiyarvermə Qanununun təsiri altında idi.. ..201

**13: Təsvir qanunu**

İnsanlar gördüklərini tətbiq edirlər

"Easy" bölüyü Arden əməliyyatında Alman irəliləyişinə qarşı tab gətirdi və müttəfiqlərin irəliləyişini dayandırmaq üçün Hitlerin son ümidini puç elədi. Liderləri Təsvir Qanununu qəbul etdiyi üçün Piyada Alayının üzvləri bu hücuma müqavimət göstərə bilmişdi........219

**14: Ortaqlıq qanunu**

İnsanlar əvvəl liderə, sonra da onun uzaqgörənliyinə inanırlar

Onlar minlərlə insanın həyatı bahasına olsa belə, passiv etirazla öz millətlərini azad etdilər. Onları belə bir iş tutmağa nə təşviq edə bilərdi? – Ortaqlıq Qanunu.............235

**15: Qələbə qanunu**

Liderlər hər zaman öz komandalarına qələbə qazandırmağın bir yolunu tapır

İngiltərəni Blitz adlandırılan Alman bombardman hücumundan xilas edən, Cənubi Afrikada irqçiliyi müdafiə edən Aparteid rejiminin belini qıran və "Chicago Bulls" basketbol komandasına çoxsaylı dünya çempionatlarını qazandıran nə idi? Hər üç halda cavab eynidir. Onların liderləri Qələbə Qanununa riayət edirdi. ....................251

**16: Böyük an qanunu**

İmpuls bir liderin ən yaxın dostudur

Ceymi Eskalante Amerikanın ən yaxşı müəllimi sayılır. Lakin onun tədris bacarığı işin yalnız yarısını təşkil edir. Onun və Qarfild liseyinin uğuru Böyük An Qanununun təcəssümüdür.........................................................265

**17: Prioritetlər qanunu**

Liderlər anlayırlar ki, fəaliyyət mütləq nailiyyət deyil

Ona sehrbaz deyirdilər. Onun prioritetləri o qədər aydın idi ki, ona tarix və saat versəydiniz, o, oyunçularının hansı məşqləri etdiyini və nəyə görə etdiyini dəqiq deyə bilərdi. Bu, ona on çempionluq qazandırdı. Bəs Prioritetlər Qanunundan siz necə faydalana bilərsiniz? ................ 281

**18: Fədakarlıq qanunu**

Bir lider lazım gələrsə fəda etməyi bacarmalıdır

Sizi özünə nümunə götürən insanlar üçün nədən imtina edərdiniz? Məsələn, bu lider həyatını qurban verdi. Çünki o, Fədakarlıq Qanununun gücünü dərk edirdi. ........................................................................ 293

**19: Zamanlama qanunu**

Nə etdiyiniz və hara getdiyiniz qədər bütün bunları nə zaman etdiyiniz də önəmlidir

Hər mövqedən olan liderlər-şəhər başçısı, qubernator, kabinet katibi və prezident səhvə yol verdilər. Onların heç biri liderin Zamanlama Qanununu pozduğu vaxt baş verə biləcək potensial fəlakəti başa düşmürdü............ 319

**20: Sürətli inkişaf qanunu**

İnkişaf əldə etmək üçün tərəfdarlarınızı idarə edin, inkişafı fantastik dərəcədə artırmaq üçün isə liderləri

Dünyada bir milyondan çox insanı öyrətmək mümkündürmü? Əgər lider riyaziyyatından istifadə edirsinizsə, bəli, bu, mümkündür. .................................................... 323

**21: Varislik qanunu**
Liderin varlığının təminatı olan dəyərlər onun varisləri ilə ölçülür
Sizin dəfn mərasiminizdə iştirak edən insanlar haqqınızda nə danışacaqlar? Onların sabah deyəcəkləri, sizin bu gün Varislik Qanunundan istifadə edərək necə yaşamağınızdan asılıdır. ........................................................ 341

*Nəticə* ........................................................ 357
*21 Liderlik qanununun qiymətləndirilməsi* ............... 359
*Qeydlər* ........................................................ 370

**Stiven R.Kovi tərəfindən**

# 10 İLLİK YUBİLEY BURAXILIŞINA ÖN SÖZ

Con Maksvell məndən "Liderliyin 21 inkarolunmaz qanunu" kitabının 10 illik yubiley buraxılışı üçün ön söz yazmağı xahiş edəndə, şərəf hissi keçirdim və bu təklif məndə maraq doğurdu. Son 20 il ərzində Con və mən məruzəçilik və naşirlik sahəsində paralel yollardan keçmişik. Bu illər ərzində hər ikimizi "liderlik mütəxəssisi" adlandırıblar. İkimiz də bir-birimizin işinə bələdik və qarşılıqlı hörmət bəsləyirik. İnsanlara çatdırmaq istədiyimiz mesaj arasında oxşarlıq olsa da, nadir hallarda eyni auditoriyaya müraciət edirik. Beləliklə, bu kitabı tövsiyə etmək mənə imkan verir ki, Con Maksvellini və onun təlimini hələ də onun əsərləri ilə tanış olmayan auditoriyamın üzvlərinə təqdim edim. "Liderliyin 21 inkarolunmaz qanunu"nun bu yeni və təkmilləşdirilmiş versiyasından daha yaxşı hansı kitabı tövsiyə etmək olar? Bu, onun tədrisi və həyatı üçün bir növ manifest rolunu oynayır. Bu kitabı tədqiq edin və Con Maksvelli onun liderlik fəlsəfəsi

ilə yanaşı şəxsiyyət olaraq da tanımış olacaqsınız. "21 qanun" ilk dəfə 1998-ci ildə nəşr olunanda, bu qanunların nə qədər əlverişli və rahat tətbiq oluna biləcəyini dərhal sezmişdim. Bu gün hələ də həmin qanunlar öz praktikliyini qoruyub saxlayır. 30 ildən çoxdur ki, Con Maksvell kommunikator kimi şöhrət qazanıb. Özünün də dediyi kimi kommunikatorlar "mürəkkəb olanı sadələşdirirlər". Bu kitab liderliyin məxfi araşdırmasından daha çox əsas təlimat kitabçasına bənzəyir. Kitabın hər fəslində siz sözügedən qanuna əməl edən, yaxud əməl etməyən şəxsiyyətlərlə tanış olacaqsınız. Qanunun özü aydın və sadə şəkildə xarakterizə edilib. Ən əsası Con sizə bu qanunları ofisinizdə, cəmiyyətdə, ailədə və ya kilsədə liderliyə tətbiq etmək üçün konkret addımlar təklif edəcək.

Con mənə "21 qanun"u ilk dəfə qələmə alındığından bu yana qazandığı təcrübələrini də yeni nəşrə daxil etmək fürsətindən həyəcanlandığını bildirdi. Mən onun nə demək istədiyini başa düşürəm. Liderlik sabit olmur, gəlin razılaşaq ki, onun haqqında yazılan kitablar da bu tərzdə olmamalıdır. Güman edirəm ki, kitabın yenilənmiş nəşri sələfindən daha böyük təsir gücünə malik olacaq. Qanunlar müasir dövrə uyğunlaşdırılaraq təzələnib, illüstrasiyalar yaxşılaşdırılıb, tətbiqlər təkmilləşdirilib. Təməl liderlik konsepsiyaları isə məğzini itirməyib; əksinə, yeni nəsil liderlər üçün təzələnib. Orijinal nəşr nə qədər yaxşı olsa da, yeni buraxılış ondan da yaxşıdır.

Əgər "Liderliyin inkarolunmaz 21 qanunu" sizin üçün yenidirsə, icazənizlə bildirim ki, bu kitab sizin çox xoşunuza gələcək. O, sizin həyat tərzinizi və rəhbərlik yolunuzu dəyişdirəcək. Kitabı oxuduqca ruhlanacaq, liderlik bacarığınızı artırmış olacaqsınız. Orijinal kitabla tanışsınızsa, bu yeni